# STALİNİN KRIM ƏRAZİSİNDƏ DEPORTASİYA SİYASƏTİ

Aygün İSMAYILOVA*

**Xülasə:** Məqalədə Stalinin İkinci Dünya müharibəsi zamanı apardığı deportasiya siyasətindən bəhs edilir. Stalin müharibəyə mane olduqlarını əsas gətirərək SSRİ ərazisindəki bir çox xalqları Mərkəzi Asiya və Sibirə sürgün etmişdir. Deportasiya aparılmış ərazilərdən biri də Krım idi. Krımda yaşayan tatarlar (türklər), bolqarlar, yunanlar, ermənilər, karaimlər Stalinin bu siyasətinin qurbanı olaraq deportasiyaya məruz qalmışdır. XDİK sənədlərinə əsasən aparılan deportasiya siyasətinin miqyası, qurbanları haqqında məlumat verilmişdir. Deportasiya siyasətinin həyata keçirilmə səbəbləri, nəticələri əks edilmişdir. Bu xalqlara bəraət verilməsindən sonra geri qayıtma prosesinə də toxunulmuşdur.

***Açar Sözlər:*** *SSRİ, Krım, Deportasiya, Krım Tatarları, Bolqarlar, Ermənilər, Karaimlər, XDİK, Stalin, Beriya*

**Stalin's Deportation Policy in The Crimea Territory**

**Abstract:** The article talks about Stalin's deportation policy during the Second World War. Stalin exiled many peoples of the USSR to Central Asia and Siberia on the grounds that they hindered the war. Crimea was one of the areas where deportations took place. Tatars (Turks), Bulgarians, Greeks, Armenians, Karaims living in Crimea were deported as victims of this policy of Stalin. Information about the extent of the deportation policy and the victims was provided based on the documents of the National Security Council. The reasons and results of the implementation of the deportation policy are reflected. The process of returning to these nations after acquittal was also touched upon.

***Key Words:*** *SSRI, Crimea, Deportation, Crimean Tatars, Bulgarians, Armenians, Karaims, The People's Commissariat For Internal Affairs, Stalin, Beria*

## Giriş

Çoxmillətli Rusiyanın həyatında milli siyasət həmişə mühüm rol oynayır. Milli siyasətin ən faciəvi təhazürlərindən biri Stalinin İkinci Dünya müharibəsi zamanı həyata keçirdiyi deportasiyalardır. Müharibənin ekstremal ictimai-siyasi vəziyyəti milli siyasətdə olan problemləri daha parlaq nümayiş etdirmiş oldu. Bununla yanaşı, milli münasibətlərdə bir sıra yeni problemlər yaratdı. Sovet İttifaqının xalqlarının tammiqyaslı soyqırımı həyata keçirilmiş oldu. Bəhs edilən dövrdə SSRİ-də həyata keçirilən deportasiya siyasəti bu xalqların tarixində silinməz izlər buraxmışdır. Deportasiya edilmiş xalqlar öz doğma yurd-yuvalarından didərgin düşərək uzun müddət məhrumiyyətlər içərisində yad mühitdə və xüsusi rejimin nəzarəti altında yaşamağa məhkum edilmişdilər. Həmin xalqlar məskunlaşdıqları ərazinin sosial və mədəni həyatına da müəyyən dərəcədə təsir göstərmişdir. Odur ki, deportasiya edilmiş xalqların bir-birləri və digər xalqlarla olan münasibətlərinin tədqiqi baxımından da bu mövzuya müraciət edilməsi öz əhəmiyyətini qoruyub-saxlayır.

Deportasiya mövzusunun araşdırılmasına uzun müddət sovet rejiminin tələbləri baxımından məhdudiyyətlər qoyulmuşdur. Məsələnin tədqiqində əhəmiyyət kəsb edən sənədlər və arxiv materialları uzun müddət məxfi qrif altında saxlandığı və ictimaiyyətə açıqlanmadığı üçün sanballı əsərlər yazılmamış, sadəcə memuar xarakterli yazılar dərc edilmişdi. Lakin Stalinin ölümündən sonra "şəxsiyyətə pərəstiş"in tənqidindən sonra bu sənədlər tədricən üzə çıxarılmağa başlandı və bu da deportasiya məsələsinin tədqiqində mühüm rol oynadı. XDİK sənədlərinin 1989-cu ildə nəşr olunmasından sonra bu sahədə tədqiqatlar xeyli artmış oldu.

## 1.Krım Türklərinin (Tatarlarının) Deportasiyası

Böyük Vətən müharibəsi zamanı SSRİ-nin həyata keçirdiyi deportasiya siyasətinə məruz qalan xalqlardan biri də Krım tatarları (türkləri) olmuşdur. Müharibənin ilk illərində faşist Almaniyası üstünlük qazanaraq tədricən sovet ərazilərinin içərilərinə doğru irəliləyirdilər. Faşist orduları 1941-ci ilin noyabrında Krımın şimalındakı Perekopdan keçərək

* Humanitar Fənlər Və Regionşünaslıq Kafedrasının Müəllimi Bakı Avrasiya Universiteti, , e-mail: aygunismayilova13@gmail.com

noyabrın 30-dək artıq Sevastopol istisna olmaqla bütün Krıma sahib oldular. Qeyd edək ki, Krımla bağlı almanların öz planları var idi. Belə ki, faşistlər Krımı öz ərazilərinə daxil etmək, bu bölgəni alman hərbçilərinin tətil düşərgəsinə çevirmək və ya İtaliya ilə aralarında mübahisəli ərazi olan Cənubi Tirol almanlarını burada məskunlaşdırmaq istəyirdilər (Бугай, 1992: 122)

Krım türklərinin almanlara qarşı münasibəti birmənalı olmamışdır. Onlardan bəziləri almanların gəlişini müstəqil Krım dövləti qurmaq üçün bir şans olduğunu fikirləşirdi və almanlar tərəfindən SSRİ-yə qarşı yaradılan xüsusi legionlara qatılmışdılar. Lakin belə legionlara qatılan Krım türklərinin əksəriyyəti almanlar tərəfindən əsir alınanlar idi. Onlar əsasən, Nikolayev və Simferopol kəndlərindəki əsir düşərgələrində saxlanılan əsirlərdən təşkil olunmuşdu. Qeyd etmək lazımdır ki, belə legionlar təkcə Krım türklərindən ibarət olmamış, SSRİ-yə daxil olan digər xalqlardan da təşkil edilmişdi. Alman əsir düşərgələrində vəziyyət olduqca acınacaqlı idi. Aclıq, yoluxucu xəstəliklər və alman əsgərlərinin pis rəftarı nəticəsində 1941-ci ilin noyabrında artıq 3800000 nəfər Sovet əsirləri həlak olmuşdu. Almanlar üçün də gözlənilməz sayda olan əsirləri saxlamaq ciddi problemə çevrilmişdi. Eləcə də əsirlikdən qayıdan sovet vətəndaşları da “Vətən xaini” kimi şübhə altına alınaraq məhv edilirdi. Odur ki, həyatda qalmaq arzusunda olan əsirlər bütün bu əzablardan xilas yolunu legionlara qatılmaqda görürdülər. Krım türklərindən ibarət belə bir legionun yaradılmasına Hitler 2 yanvar 1942-ci ildə qərar vermişdir. Alman hərbi sənədlərinə görə, Krımın 203 bölgəsindən 5655 nəfər və beş əsir düşərgəsindən 3600 nəfər olmaqla, toplanan “könüllü”lərin sayı 9255 nəfərdən ibarət olmuşdur (Александров, 2003: 128). Krım türklərinin bir hissəsinin almanlarla bu cür əlaqələrinin olmasına baxmayaraq, əksəriyyəti Sovet orduları sıralarında, eləcə də partizan dəstələrində almanlara qarşı vuruşmuşlar. Belə Krım türklərinin bir hissəsi Sovet rəhbərliyi tərəfindən yüksək dərəcədə medal və nişanlarla təltif edilmişlər. Bu mükafatlardan biri müharibə zamanı 30 alman təyyarəsini məhv edən və iki dəfə “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülən Əhməd xan Sultana təqdim edilmişdir. Bundan başqa, Abdraim Rəşidov, Abdul Teyfuk, Uzeir Abudaramanov, Seitnafe Seitvaliyev, Fetislyam Əbilov kimi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülənləri misal göstərmək olar.

Krım türklərinin Sov.İKP-nin XXIII qurultayına göndərdikləri məlumatdan aydın olur ki, müharibə başladığı zaman Krımın Kuybışev, Baxçasaray, Aluşta, Sudak, Lenin və Balaklava rayonlarına aid 21 kənddən 18 yaşında olan 4252 nəfərdən 2324 gənc Qızıl Ordu sıralarına qatılmışdır. Eləcə də, 329 nəfər partizan dəstəsində iştirak etmişdir. Bu məlumatda Krım türklərinin 26,4 %-nin həlak olduğu bildirilir. Krım türkləri əldə etdiyi uğurlara görə ordu sıralarında rəhbər vəzifələrə təyin edilmişdilər, 28 bölüyün 10-a Krım türkləri nəzarət etmişdir. Bütün bunlara baxmayaraq, rus komandirlərdən Martinov və Makrusov kimi şəxslər Sovet rəhbərliyinə təqdim etdikləri rəsmi hesabatda Krım türklərinin faşistlərlə əlbir olaraq Vətənə xəyanət etdiklərini ifadə edirdilər. (Özcan, 2004: 128).

Qızıl Ordu irəliləyərək 1944-cü il aprelin 10-da faşistləri Krım yarımadasından çıxardılar. Bundan sonra Krım türklərinin deportasiyasına başlanıldı. 13 aprel 1944-cü ildə NKVD (XDİK ) və NKQB (MTN) tərəfindən № 00419-00137 saylı “Krım ərazisinin anti-sovet ünsürlərdən və almanlarla əlbir olanlardan təmizlənməsi” barədə qərar qəbul edildi. SSRİ Daxili İşlər Xalq Komissarı L.Beriya və Dövlət Təhlükəsizlik Komissarı V.Merkulov bununla bağlı xüsusi komissiya təşkil etdilər. Komissiyanın hazırladığı hesabata görə, 1939-cu ilə kimi Krımda 1.126.429 nəfər əhalinin 218.179 nəfəri Krım tatarı olmuşdur. Bu hesabatda qeyd olunurdu ki, 1940-cı ildə Qızıl Ordu sıralarına çağırılan 90 min nəfərdən 20 min nəfəri Krım tatarları olmuşdur. Sovet rəhbərliyinin bölgənin anti-sovet qüvvələrdən təmizlənməsi ilə bağlı qərarına uyğun olaraq aparılan əməliyyatlar zamanı 1944-cü ilin mayın 7-də 5381 nəfər həbs edilmişdi (Gleser, Polian, 2015: 143). Bütün bunların nəticəsində Krım türklərinin deportasiyasına qərar verildiyi aydınlaşdı. Serov və Kabulovun Beriyaya

göndərdikləri hesabatda deportasiya tədbirlərinin 18-20 may tarixinə kimi, deportasiya planının isə mayın 25-ə kimi yekunlaşdırmağın mümkün olması qeyd olunmuşdu. Beriya da öz növbəsində 10 may 1944-cü ildə Stalinə Krım türklərinin Sovet xalqına xəyanət etdiyini nəzərə almağı və bu səbəbdən də onların Krım bölgəsindən çıxarılaraq SSRİ-nin daxili bölgələrinə, yəni, Mərkəzi Asiyaya yerləşdirməsi barədə yazılı müraciət etdi. Stalin bununla bağlı № 5859 saylı məxfi qərar imzaladı (Александров, 2003: 257). Qərarı həyata keçirmək üçün XDİK qüvvələri 1 iyun 1944-cü ilə kimi bu işi başa çatdırmalı idilər. Beləliklə, 18 may sübh tezdən Krım tatarlarının məcburi köçürülməsi başlandı. Mayın 20-nə 180014 nəfər artıq köçürülmüşdü. Nəhayət 22 may tarixində yekun hesablamalara əsasən 194155 nəfər Krım tatarı deportasiya olunmuşdu. Onlardan 151083 nəfər Özbəkistan SSR-da (təxm. 56 min nəfər Daşkənd vilayətində, təxm. 32 min nəfər Səmərqənd vilayətində, təxm. 19 min nəfər Əndican vilayətində və təxm. 16 min nəfər Fərqanə vilayətində yerləşdirildi), qalanları isə Ural regionunda və SSRİ-nın ərazisinin qərb hissəsindəki vilayətlərdə yerləşdirildi (Əmrah, 2015: 178) 20 oktyabr 1944-cü il tarixindən etibarən Krımda (Krım MSSR-sının 11 rayonu və MR-nın mərkəzi daxil olmaqla) kütləvi şəkildə tatar, yunan və alman mənşəli toponimlər və etnik tərkib dəyişdirilərək ruslaşdırıldı. Krım MSSR ləğv edilərək onun ərazisində Krım vilayəti yaradıldı və o, Ukrayna SSR-dan alınaraq RSFSR-ə verildi. Özbəkistana köçürülən Krım tatarları yerli iqlimə uyğunlaşa bilmir, aclıq və soyuqdan ötrü xəstələnərək dünyalarını dəyişirdilər. Nəticədə qeyd olunan səbəblərə görə 1944-cü ildən 1946-cı ilədək Özbəkistanda məskunlaşmış 29 min nəfər (1944-cü ildə təxm. 16 min nəfər, 1945-ci ildə isə 13 min nəfərdən çox) Krım tatarı ölmüşdür. Krım tatarlarının deportasiyası ilə bağlı diqqəti cəlb edən məqamlardan biri də Ararat kəndinin sakinlərinin taleyidir. Belə ki, Krım türkləri deportasiya olunduqdan bir neçə gün sonra məlum olmuşdur ki, Ararat kəndində olanlar unudulmuşdur. Məhz buna görə həmin kəndin sakinləri qayıqlara doldurularaq Qara dənizdə batırılmışdır. Bu da deportasiyanın zorakı miqyasını sübut edən faktlardan biridir (Polat, 2014: 52).

Köçürülən tatarların böyük əksəriyyətini hərbi keşikçilər, buraxılış məntəqələri və tikanlı məftillərlə əhatə olunmuş xüsusi məntəqələrdə yerləşdirmişdilər. Bunlar dinc yaşayış məntəqələrindən daha çox əmək düşərgələrinə bənzəyirdi. Köçürülənlər ucuz işçi qüvvəsi idilər və onları kolxoz, sovxoz və sənaye müəssisələrində işlədirdilər. Özbəkistanda onlar pambıq tarlalarında çalışır, şaxta, tikinti, zavod və fabriklərdə işləyirdilər. Ən ağır işlər Fərhad SES-in tikintisində idi. 1948-ci ildə Moskva Krım tatarlarını ömürlük köçkün kimi tanıdı. XDİK-in icazəsi olmadan, məsələn, qohumlarına baş çəkmək üçün ərazidən çıxan tatarları 20 il müddətinə azadlıqdan məhrumetmə cəzası gözləyirdi və belə hallar olmuşdu (Дагджи, 2008: 125).

Hələ deportasiyadan əvvəl təbliğat yerli əhalidə Krım tatarlarına qarşı nifrət oyatmışdı. Onlara satqın və xalq düşməni damğası vurulmuşdu. Tarixçi Greta Lynn Uehling yazır ki, özbəklərə buralara "təpəgöz" və "adamyeyənlər"in köçürüləcəyi deyilmişdi və məsləhət görülmüşdü ki, köçkünlərdən uzaq dursunlar. Bəziləri təzə gələnlərin saçlarını yoxlayırdılar ki, buynuz olub-olmadığını müəyyən etsinlər. Sonralar tatarların da onlarla dindaş olduğunu başa düşən özbəklər xeyli heyrətlənmişdilər. Köçkünlərin uşaqları özbək və rus dillərində təhsil ala bilərdilər, lakin onların tatarca öyrənmələri qadağan idi. 1957-ci ilədək Krım tatarlarının dilində olan bütün nəşrlər qadağan edilmişdi. Böyük Sovet Ensiklopediyasından krım tatarları barədə məqalə çıxarılmışdı. Bu milliyyəti pasportlara yazmaq da qadağan olunmuşdu (Turhan, 2014; 362).

Stalinin ölümündən sonra "Şəxsiyyətə pərəstiş" tənqid edilməyə başlandı, Stalinin verdiyi qərarların düzgün olmadığı qeyd olundu, yanlışlıqlar düzəldilməyə başlandı. Belə "düzəliş"lərdən biri də deportasiya edilmiş xalqlara bəraət verilməsi, onların geri qayıtmalarına icazə verilməsi idi. Lakin bu qərar deportasiyadan əziyyət çəkən bütün xalqlara şamil edilmədi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1956-cı il 28 apreldə verdiyi qərara görə, 1943-1944-cü illərdə Şimali Qafqaz, Gürcüstan, o cümlədən də Krımdan deportasiya edilmiş

Krım tatarları, balkarlar, Ahıska türkləri, hemşinlər, kürdlərə tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması nəzərdə tutulurdu. Amma bu qərar Krım tatarlarına geri qayıtmaq hüququ vermirdi. Belə ki, qərara əsasən, deportasiya edilən adı şəkilən xalqların müsadirə edilmiş mülklərinin geri qaytarılması nəzərdə tutulurdu. Diqqət çəkən məqamlardan biri də budur ki, SSRİ Daxili işlər naziri N. P.Dudorov qərarın səhəri gün belə bir təlimat vermişdi ki, sürgündən azad edilən şəxslərin bir daha geri qayıtmayacağı və öz mülkləri üzərində haqq iddia etməyəcəyinə dair sənəd imzalansın. Yalnız bu halda, onların müəyyən əmlakları verilə bilərdi. Arxiv sənədlərindən məlum olur ki, 233 Krım tatarı bu sənədi imzalamaqdan imtina etdiyi üçün, onların Krıma geri qayıtmaları qadağan edilmiş və müsadirə edilən mallarının qaytarılmaması ilə bağlı qərar qəbul edilmişdi. Qərarın verildiyi 6 ay müddətində Krım türkləri doğma yerlərinə qayıda bilməsələr də, Krıma yaxın Zaporojye, Odessa, Xerson və Zakarpat kimi ərazilərdə məskunlaşmışdı. Bu, onların Vətən həsrətinin bariz nümunəsidir (Özcan, 2004: 111). Göründüyü kimi, bəzi deportasiya qurbanlarına geri qayıtmaq hüququ verilsə də, Krım türkləri bu hüququdan məhrum edilmişdi. Yalnız 14 Noyabr 1989-cu ildə SSRİ Ali Soveti, deportasiyanı qınayan "Məcburi köçürülməyə məruz qalan insanlara qarşı qanunsuz və cinayətkar repressiv əməllərin tanınması haqqında" Bəyannamə qəbul etdi. Bundan sonra 1989-cu ildə Krım tatarları kütləvi şəkildə tarixi vətənlərinə qayıtmağa başladılar (Turhan, 2014: 372).

**2.Krım Ərazisindən Bolqarlar, Yunanlar və Ermənilərin Deportasiya Edilməsi**

Krım ərazisində türklərdən-Krım tatarlarından başqa, digər xalqlar da-bolqarlar, yunanlar, ermənilər Stalinin deportasiya siyasətinə məruz qalmışdılar. Belə ki, XDİK sənədlərində bu xalqların deportasiyası Krım tatarlarının Krımdan çıxarıldıqdan sonra burada anti-sovet elementlərin ələ keçirilməsinin nəticəsi kimi qiymətləndirilmişdir. Verilən məlumatlardan aydın olur ki, Krım ərazisində bu zaman 12075 nəfər bolqar, 14300 nəfər yunan və 9919 nəfər erməni var idi. Bolqarlar əsasən, Simferopol və Feodosiya arasındakı yaşayış məntəqələrində, eləcə də Cankoy rayonunda yaşayırdılar (Konrad, 2012: 146). Bolqarların hər 80-100-ə qədər nümayəndəsi üçün 10-a qədər kənd soveti mövcud idi. Bundan başqa, bolqarlar rus və ukrayna kəndlərində kişik qruplar şəklində yaşayırdılar. Onların deportasiya olunmasına əsas səbəb kimi, digər deportasiya olunan xalqlar kimi almanlarla əməkdaşlıq və bununla bağlı xəyanət etmələri göstərilirdi. Belə ki, ittihamlara görə Hitler Almaniyasının işğalı zamanı bolqarların böyük bir hissəsi alman ordusunu taxıl və ərzaqla təmin etmiş, Almaniya tərəfindən maliyyələşdirilən tədbirlərdə fəal iştirak etmişdi. Bunun əvəzində bolqarlar almanlar tərəfindən şəxsiyyət və mülkiyyətlərinin qorunacağına zəmanət olaraq "təhlükəsizlik şəhadətnaməsi" alırdılar. Eyni zamanda da bolqarların yaşadığı yerlərdə almanlar polis dəstələri təşkil etmişdilər ki, onların vəzifəsi təkcə bolqarların təhlükəsizliyini təmin etmək deyildi. Bununla yanaşı, onlar alman ordusunda xidmət etmək vəAlmaniyada işləmək ilə bağlı təbliğat aparırdılar (Дробязко, Романко, Семенов, 2009: 412). Yunanlar Krımın əksər hissəsində, xüsusilə liman şəhərlərdə yaşayırdılar. Onlar işğalçıların gəlməsinə qədər ticarət və kiçik sənaye ilə məşğul olurdular. Alman komandanlığı yunanlara ticarət işlərində, malların daşınmasında kömək edirdi.

Ermənilər də Krımın əksər hissəsində yaşayırdılar, lakin ermənilərdən ibarət xüsusi yaşayış məntəqəsi yox idi. Almanlar tərəfindən "Erməni komitəsi" təşkil edilmişdi ki, bu da faşistlərə köməklik edirdi. Bundan başqa, Simferopol dağlarında keçmiş daşnaksütyun generalı Dronun başçılıq etdiyi "Dromedar" kəşfiyyat təşkilatı mövcud idi. Bu təşkilat almanların xeyrinə Qızıl Ordu haqqında məlumatlar toplamaqla, təxribatlar törətməklə, eləcə də erməni legionlarının təşkil olunmasında almanlara kömək edirdi. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məkrli niyyətlərini həyata keçirmək üçün mövcud vəziyyətdən istifadə etməyə çalışırdılar. Belə ki, Berlindən və İstanbuldan gəlmiş ermənilər "müstəqil Ermənistan"ın təbliği üçün çalışırdılar. Bu barədə 29 may 1944-cü ildə Beriyanın

"Bolqar, yunan və ermənilərin Krım MSSR-dən köçürülməsinin məqsədəuyğunluğuna dair" Stalinə göndərdiyi məktubda məlumat verilmişdir (Фонд Александра Н. Яковлева). Bundan başqa, burada "erməni dini icmaları" da fəaliyyət göstərirdilər. Onlar xırda ticarət və kiçik sənaye ilə məşğul olsalar da əsl məşğuliyyətləri sözsüz ki, bu deyildi. Təsadüfi deyil ki, almanların ermənilərdən ibarət formalaşdırdıqları legionları məhz bu dini "icmalar" maliyyələşdirirdi. Bunun üçün həmin "icmalar" hərbi ehtiyaclar adı altında müəyyən vəsait toplayırdılar. Belə cəmiyyətlərdən birinin sədri İ.X. İştxanov cəmiyyətin katibi E. Vertabedova bu barədə yazırdı: *"Cəmiyyət dini qurum adlandırılsa da, reallıqda dini məsələ heç vaxt qaldırılmamışdı. Təşkilatın əsas məqsədi din pərdəsi arxasında gizlənirdi. Bu, sovet hakmiyyətinə qarşı yönəldilmiş məqsəd idi".* (Бугай, 1995: 197)

Cəza tədbirləri təkcə ermənilərə aid olmadı. SSRİ DMK-nin 2 iyun 1944-cü ildə verdiyi 5984ss saylı qərara əsasən, 37 min bolqar, yunan və erməni Krım ərazisindən deportasiya edildi. 24 iyun 1944-cü ildə verilən 6100 saylı qərara əsasən, deportasiya gecikmiş milli pasportlara malik türk, yunan və iranlılara da aid edildi. DMK-nın göstərilən qərarına müvafiq olaraq, vaxtı qurtarmış milli pasportlara malik olan 3531 nəfər yunan, 105 nəfər türk və 16 nəfər iranlı Özbəkistanın Fərqanə vadisinə köçürülmüşdü (Əmrah, 2015: 148). Vətəndaşlığı olmayan 8300 yunan Rostov və Krosnador ərazisindən də çıxarılmışdı. Krım MSSR-dən deportasiya əməliyyatlarına XDİK müavini Serov ümumi rəhbərlik edirdi. Onun həmin il 28 iyunda Beriyaya göndərdiyi hesabatda əməliyyatın başa çatdığı və cəmi 41.854 nəfərin köçürüldüyü qeyd edilirdi. Onlardan 15 040 nəfər yunan, 12 422 nəfər bolqar, 9621 nəfər erməni, alman, italyan, rumın və b.xalqlar ümumilikdə 1119 nəfər idi. Deportasiya olunan bu xalqlar əsasən, Başqırdıstan MSSR, Mariysk MSSR, Kemerov, Molotov, Sverdlovsk, Molotovsk, Kirov və Qazaxıstan SSR-in Quryev ərazilərində yerləşdirilirdi (Бугай, 1992: 201).

1944-cü ilin sonlarında Krımdan deportasiya edilənlər arasında ilk qaçanlar oldu. Qaçış halları ən çox Başqırdıstan ərazisində qeydə alınırdı. Bununda əsas səbəbi köçürülənlərin sosial-iqtisadi vəziyyətinin burada çox pis olması idi. Belə halların qarşısını almaq üçün ifşaedici tədbirlər, köçürülənlərə nəzarət etmək üçün xüsusi qruplar təşkil edildi. Belə tədbirlərdən biri də deportasiya olunan xalqların nümayəndələrindən kəşfiyyatçılar yetişdirildi. Görülən tədbirlər nəticəsində qaçış halları azaldılmış oldu (Heintze, 2014: 169).

### 3.Krım Ərazisindəki Karaimlərin Deportasiyası

Krım ərazisindən deportasiya edilən xalqlardan biri də karaimlərdir. Əvvəllər 6.500 nəfər karaimin köçürülməsi nəzərdə tutulmuşdur (Кропотов, 2004: 14). XDİK-nin Krım MSSR üzrə rəhbəri Sergeyenkonun mərkəzə təqdim etdiyi məlumatda göstərilirdi ki, Krımdakı karaimlər X-XI əsrlərdə burada yerləşdirilən Bibliyanın dogmatik təməllərinə əsaslanan ravvinist bir təriqət olmuşdur. Daha sonra bir millət kimi formalaşmış, Krım türkləri kimi danışaraq onlardan çox az fərqlənirlər (Фонд Александра Н. Яковлева). Qeyd edək ki, karaimlər və krımçaklar yəhudilərdir, lakin Talmudu və digər ənənələri qəbul etmədikləri üçün ənənəvi yəhudilikdən fərqlənirlər. Bu barədə tədqiqatçıların fikirləri müxtəlifdir. Bunlardan biri və ən məntiqlisi onların XX əsrin 30-cu illərində antisemitizmdən qorunmaq üçün bu fərqləri təbliğ etdiyi fikirləridir. Belə ki, 1934-cü ildə Almaniyada bununla bağlı Reyx Vətəndaşlıq Qanununda qəbul edilmişdi ki, yəhudi dini icması hesab edilməməlidir. Lakin SS rəhbərliyi arasında bununla bağlı fikir ayrılıqları mövcud olmuşdur. Bu qərar karaimləri antisemit tədbirlərindən müəyyən qədər qoruya bilmişdir. Buna baxmayaraq, sovet karaimləri və krımçakları deportasiyalardan xilas ola bilmədi.

XDİK sənədlərində karaimlər və onların deportasiyası ilə bağlı məlumat verilmişdir. 10 iyul tarixində 6357 nəfər karaim qeydiyyatdan keçmişdir ki, onların bir hissəsi deportasiyaya məruz qalmışdır. XDİK təklif edirdi ki, köçürülən karaimlər Krıma qaytarılmasın, məskunlaşdırıldıqları yerlərdə saxlanılsın (Фонд Александра Н. Яковлева).

Deportasiyaya məruz qalmayan karaimlərin sayının az olduğunu əsas gətirən XDİK rəhbərliyi onların Krımda yaşamalarına icazə verilməsini məqsədəuyğun hesab edirdilər. SSRİ rəhbərliyi bu təkliflə razılaşdı. Bu barədə 24 mart 1945-ci ildə müvafiq qərar qəbul edildi (Фонд Александра Н. Яковлева). Qeyd edək ki, 1945-ci ilin iyununda Krım muxtar respublikası ləğv edilib RSFSR-in tərkibinə qatıldı (Депортация крымских татар 18 мая 1944 года. Как это было, 2008: 102)

Karaimlər deportasiyaya məruz qalsa da, yaxınlıqdakı daha böyük yəhudi və qeyri-yəhudi icmaları ilə qarşılıqlı əlaqədə olmaqla, öz unikal şəxsiyyətlərini və adət-ənənələrini uğurla qoruyub saxlamağı bacarmışlar. Sovet İttifaqının dağılmasından sonra krımçakların və karaimlərin əksəriyyəti ya İsrailə mühacirət etmək, ya da Krıma qayıtmaq qərarına gəldilər. 2008-ci il dövlət statistikasına görə, İsraildə təxminən 25.000 karaim və 600 krımçak var idi (Katsev, 2023)

Ukrayna Ali Radası Krımdan deportasiyanı yalnız bir xalqın soyqırımı kimi tanımış və 12 noyabr 2015-ci il tarixli 792 saylı qərarı ilə 18 may tarixini Ukraynada Krım tatarlarının soyqırımı qurbanlarının anım günü kimi təsis etmişdir. 1941-1942-ci illərdə kütləvi edamlar zamanı həlak olmuş krımçaklara və aşkenazilərə hörmət əlaməti olaraq Krım Muxtar Respublikasının Ali Radası hələ 2004-cü ildə dekabrın 11-ni rəsmi "Krımçakların və Yəhudilərin Anım Günü" hesab etmək qərarına gəlmişdir. (Сеитова, 2016)

## Nəticə

Deportasiya məqsədli və ya məqsədsiz şəkildə həyata keçirilən təcavüzkar siyasətdir. Hər hansı bir qrupun və ya bütöv bir xalqın bir yerdən digərinə yerləşdirilməsi, faktiki olaraq onların öz doğma yerlərindən məhrum olunmasıdır. Deportasiya siyasətinin siyasi motivləri, özünəməxsus qanunauyğunluğu var. Xalqların digər ərazilərə yerləşdirilməsi totalitar, antidemokratik rejimin milli repressivsiyasətinin nəticəsidir. Stalinin həyata keçirdiyi deportasiya siyasəti - SSRİ-də siyasi repressiyaların formalarından biridir. Böyük Vətən müharibəsi dövründə SSRİ-də həyata keçirilən deportasiya siyasəti məcburi şəkildə öz doğma yerlərindən köçürülməyə məruz qalmış xalqların həyatında dərin izlər buraxmışdır. Bu xalqlar dövlət siyasətinin qurbanı oldular.

Deportasiya edilən xalqlar əsasən, Mərkəzi Asiya və Qazaxıstan, Sibir ərazilərində məskunlaşdırılırdılar. XDİK və XKS-nin rəsmi sənədlərində məcburi şəkildə köçürülmüş bu insanların yaşayış yeri, ərzaq, tibbi ləvazimat və işlə təmin olunması və bunun üçün müvafiq vəsait ayrıldığı haqqında məlumatlar olsa da, tarixi faktlar bunun əksini göstərir. Belə ki, deportasiya edilən xalqlar məskunlaşdırıldıqları ərazilərdə xüsusi rejim altında yaşamağa məhkum edilmişdilər. Onlara nəzarət etmək üçün xüsusi olaraq XDİK, DTK əməkdaşlarından ibarət qruplar fəaliyyət göstərirdilər ki, müəyyən olunmuş "sərhəd xətti"ni keçməyə heç bir ixtiyarları yox idi. Deportasiya edilmiş hər hansı bir şəxs digər karantin zonasında olan öz yaxınını görmək və ya hər hansı bir iş üçün yaşadığı məntəqəni tərk etmək üçün mütləq onlara nəzarət edən milis əməkdaşlarından icazə almalı idi. Bundan başqa deportasiya edilən xalqların yerləşdirildikləri ərazilərdəki yerli əhaliyə onlara heç bir kömək etməmək tapşırılmışdı. Hər hansı bir köməkliyin baş verməməsi üçün SSRİ rəhbərliyi qabaqlayıcı tədbirlər görürdülər. Bunun üçün qadağalarla yanaşı, yerli əhali arasında köçürülənlər haqda müxtəlif şayiələr yayırdılar ki, bu da müəyyən müddətə qədər deportasiya edilənlərə hər hansı bir yardım edilməsinin qarşısını almış olurdu. Stalinin subyektiv fikirlərinin qurbanı olan bu xalqların deportasiyası göründüyü kimi zorakılıqlarla müşayiət edilmişdir. Buna baxmayaraq, bu gün də bu hadisələri və tarixi faktları deportasiya termini ilə adlandırmağın əleyhinə olan tədqiqatçılar var. Hətta Stalinin deportasiya siyasətinə haqq qazandıran, "Stalin peşəkarlıqla anti-sovet ünsirləri təmizlədi" deyənlər də var. Halbuki, miqyasına və "cəzalandırma metodu"na görə bu siyasət qeyri-humanist və ədalətsiz bir qərar idi.

## ƏDƏBİYYAT

Əmrah, M.İ. (2015) Mərkəzi Asiyanın türk respublikaları müharibə illərində (1941-1945) Bakı: Mütərcim

Gleser, O. & Polian P. (2015) Ethnische Deportationen im Raum der Ehemaligen UdSSR Geographica Slovenica № 24 139-152

Heintze, H. (2014) Der völkerrechtliche Status der Krim und ihrer Bewohner Die Friedens-Warte Vol. 89, No. 1/2, pp. 153-179

Konrad, M. (2012) Deportationen in Stalins Sowjetunion. Das Schicksal der Russlanddeutschen und anderer Nationalitäten Institut für Kultur und Geschichte der Deutschen in Nordosteuropa e.V. (IKGN) an der Universität Hamburg, Lüneburg

Katsev, A. (2023) Uncovering the unique identities and challenges facing Crimean Karaites and Krymchaks // https://euneighbourseast.eu/young-european-ambassadors/blog/blog-uncovering-the-unique-identities-and-challenges-facing-crimean-karaites-and-krymchaks/

Özcan, K. (2004) Kırım türklerinin sürgünü və milli mücadele hareketi (1944-1990), İstanbul

Polat, G. (2014) 1943-1944 yıllarında sovyetler birliğinden sürgün edilen halkların sürgününün ve geri dönüş düzenlemelerinin karşılaştırmalı olarak incelenmesi; Ahıska, Kırım ve Karaçay-Malkar sürgünleri örnekleri, Ankara

Turhan, K. (2014) Kırım türklerinin 1944 sürgününün 70. yılında kültür ve sanattaki iz düşümleri üzerine düşünceler. Türkiyat Araştırmaları Enstitüsü Dergisi [TAED] 51, Erzurum, s.357 - 378

Александров, К.М. (2003) Против Сталина. Власовцы и восточные добровольцы во Второй мировой войне. Санкт-Петербург: Ювента

Бугай Н.Ф. (1992) Иосиф Сталин - Лаврентию Берии: «Их надо депортировать», Москва: Дружба народов

Бугай, Н.Ф. (1995) Л.Берия - И.Сталинну: «Согласно Вашему указанию» Москва: АИРО-ХХ

Дробязко, С.И. & Романко, О.В. & Семенов, К.К. (2009) Иностранные формирования Третьего рейха. Москва: АСТ Астрел

Дагджи, Т. Ш. (2008) Сталинский геноцид и этноцид крымскотатарского народу. Акъмесджит

Депортация крымских татар 18 мая 1944 года. Как это было. (2008) Симферополь: Оджакь,. Кропотов, В. С. (2004) Военные традиции крымских караимов Симферополь

Сеитова, Э. (2016) «1944»: как на самом деле депортировали и возвращали в родные края крымских татар https://realnoevremya.ru/articles/31723

Фонд Александра Н. Яковлева // http://www.alexanderyakovlev.org/fond